**“Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi”nin**

**2024-cü il üzrə audit edilmiş maliyyə hesabatlarının qısa icmalı**

Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (bundan sonra AYNA) avtomobil nəqliyyatı ilə müntəzəm sərnişin daşımalarının təşkilini, avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımalarını tənzimləyən icazə sisteminin tətbiqini, rəqəmsal taxoqraf kartları üzrə milli sistemin fəaliyyətinin təmin olunmasını, parklanma xidmətinin təşkil olunmasını və ölkə üzrə nəqliyyat infrastrukturunun inkişafını təşkil edir.

2024-cü ildə Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin maliyyə göstəricilərində əhəmiyyətli dəyişikliklər baş vermişdir. Bu dəyişikliklər Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 aprel tarixli “Bakı şəhərinin inzibati ərazisində avtomobil nəqliyyatı sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Fərmanına əsasən Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyindəki “Bakı Nəqliyyat Agentliyi” publik hüquqi şəxsin AYNA-ya qoşulması nəticəsində qurumun daha geniş fəaliyyət dairəsini əhatə etməsi ilə bağlıdır.

Bakı Nəqliyyat Agentliyinin qoşulması nəticəsində 2024-cü ildə AYNA-nın cəmi aktivləri 301,5 milyon manat, cəmi kapitalı isə 292 milyon manat təşkil etmişdir.

2024-cü ildə qurumun fəaliyyət sahəsinin genişlənməsi, yol infrastrukturu üzrə işlərin həcminin artması və parklanma sisteminin yenidən təşkil edilməsi ilə bağlı gəlirləri artmışdır. AYNA-nın 2024-cü il üzrə ümumi gəlirləri 77,3 milyon manat təşkil etmişdir. Gəlirlərin 39,6 milyon manatı dövlət büdcəsindən ayrılmış vəsaitlər, 37,7 milyon manatı isə Agentliyin təsərrüfat fəaliyyəti hesabına formalaşmışdır.

İnkişaf və genişlənmə ilə bağlı olaraq 2024-cü ildə xərclər də artmışdır. Xərclərin əsas hissəsi köhnəlmə (amortizasiya) xərcləri, əməkhaqqı fondu, yolların xətlənməsi, parklanma infrastrukturunun təşkili və nəqliyyat axınının tənzimlənməsi işləri ilə əlaqədardır.

# “AZƏRBAYCAN YERÜSTÜ NƏQLİYYAT AGENTLİYİ” PUBLİK HÜQUQİ ŞƏXSİ

**Xüsusi Məqsədli Maliyyə Hesabatları**
**və Müstəqil Auditorların Rəyi**
31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə

## “AZƏRBAYCAN YERÜSTÜ NƏQLİYYAT AGENTLİYİ” PUBLİK HÜQUQİ ŞƏXSİ

### MÜNDƏRİCAT

**Səhifə**


| | |
|---|---|
| XÜSUSİ MƏQSƏDLİ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI | 1 |
| MÜSTƏQİL AUDİTORLARIN RƏYİ | 2-4 |
| 31 DEKABR 2024-CÜ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ XÜSUSİ MƏQSƏDLİ MALİYYƏ HESABATLARI: | |
| Maliyyə vəziyyəti haqqında xüsusi məqsədli hesabat | 5 |
| Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında xüsusi məqsədli hesabat | 6 |
| Kapitalda dəyişikliklər haqqında xüsusi məqsədli hesabat | 7 |
| Pul vəsaitlərinin hərəkəti haqqında xüsusi məqsədli hesabat | 8-9 |
| Xüsusi məqsədli maliyyə hesabatları üzrə qeydlər | 10-56 |

## XÜSUSİ MƏQSƏDLİ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI

Bu bəyannamə "Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi" Publik Hüquqi Şəxsin ("Cəmiyyət") xüsusi məqsədli maliyyə hesabatları ilə bağlı rəhbərliyin və müstəqil auditorların göstərilən məsuliyyətlərini fərqləndirmək məqsədilə hazırlanmışdır.

Rəhbərlik 31 dekabr 2024-cü il tarixinə Cəmiyyətin maliyyə vəziyyətini və həmin tarixdə başa çatmış il üzrə əməliyyat nəticələrini, pul vəsaitlərinin hərəkətini və kapitalda dəyişiklikləri əks etdirən xüsusi məqsədli maliyyə hesabatlarının, xüsusi məqsədli maliyyə hesabatlarının 2 saylı Qeydində müəyyən edilmiş xüsusi məqsədli maliyyə hesabatlılığı çərçivəsinə uyğun olaraq düzgün hazırlanması üçün məsuliyyət daşıyır.

Xüsusi məqsədli maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik aşağıda göstərilənlər üzrə məsuliyyət daşıyır:

- Uyğun mühasibat prinsiplərinin seçilməsi və mütəmadi olaraq tətbiq edilməsi;
- Məntiqli və məqsədəuyğun təxminlərin və qərarların qəbul edilməsi;
- Xüsusi məqsədli maliyyə hesabatlarının, xüsusi məqsədli maliyyə hesabatı standartına müvafiq hazırlanması və ya əgər hər hansı bir kənarlaşma varsa onun xüsusi məqsədli maliyyə hesabatlarında bəyan edilməsi və izahı;
- Yaxın gələcəkdə Cəmiyyət işini normal şərtlər altında davam etdirdiyi halda, xüsusi məqsədli maliyyə hesabatlarının fasiləsizlik prinsipi əsasında hazırlanması.

Rəhbərlik, həmçinin aşağıdakı məsələlər üzrə məsuliyyət daşıyır:

- Cəmiyyət daxilində səmərəli və keyfiyyətli daxili nəzarət sisteminin işlənib hazırlanması, qurulması və möhkəmləndirilməsi;
- Cəmiyyətin maliyyə vəziyyətini istənilən zaman düzgün şəkildə əks etdirən mühasibat sisteminin təşkil edilməsi və Cəmiyyətin xüsusi məqsədli maliyyə hesabatlarının müvafiq hesabat standartına uyğun olaraq düzgün hazırlanması;
- Yerli mühasibat sisteminin müvafiq qanunvericiliyə və mühasibat uçotu standartlarına uyğun olaraq təşkil edilməsi;
- Mümkün imkanlardan istifadə edərək Cəmiyyətin aktivlərinin mühafizə edilməsinin təşkil olunması; və
- Fırıldaqçılıq, xətalar və digər qanunauyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması.

31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə Cəmiyyətin xüsusi məqsədli maliyyə hesabatları 15 sentyabr 2025-ci il tarixində Cəmiyyətin rəhbərliyi tərəfindən təsdiq edilmişdir.

**Rəhbərliyin adından:**

**Anar Rzayev**
**İdarə Heyətinin sədri**

15 sentyabr 2025-ci il
Bakı, Azərbaycan Respublikası

**Ramil Məmmədov**
**Mühasibat uçotu şöbəsinin müdiri/**
**Maliyyə departamentinin direktoru vəzifəsini icra edən**

15 sentyabr 2025-ci il
Bakı, Azərbaycan Respublikası

City Point Baku, 9th floor
J. Mammadguluzadeh str., 102A
Baku, AZ1022, Azerbaijan

T: +994 (12) 404 7 666
F: +994 (12) 404 7 667

office@bakertilly.az
**www.bakertilly.az**

## MÜSTƏQİL AUDİTORLARIN RƏYİ

"Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi" Publik Hüquqi Şəxsin Səhmdarı və Rəhbərliyinə:

### *Şərti Müsbət Rəy*

Biz "Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi" publik hüquqi şəxsin ("Cəmiyyət") 31 dekabr 2024-cü il tarixinə maliyyə vəziyyəti haqqında xüsusi məqsədli hesabatdan, həmin tarixdə başa çatmış il üzrə mənfəət və ya zərər və digər məcmu gəlir haqqında xüsusi məqsədli hesabatdan, kapitalda dəyişikliklər haqqında xüsusi məqsədli hesabatdan və pul vəsaitlərinin hərəkəti haqqında xüsusi məqsədli hesabatdan, habelə əhəmiyyətli uçot prinsiplərinə dair məlumatların qısa təsviri də daxil olmaqla, xüsusi məqsədli maliyyə hesabatlarına edilən qeydlərdən ibarət xüsusi məqsədli maliyyə hesabatlarının auditini aparmışıq.

Bizim rəyimizə əsasən, Şərti Müsbət Rəy üçün Əsaslar paraqrafında qeyd edilmiş məsələlər istisna olmaqla, əlavə edilmiş xüsusi məqsədli maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2024-cü il tarixinə maliyyə vəziyyətini, habelə göstərilən tarixdə başa çatmış il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini xüsusi məqsədli maliyyə hesabatlarının 2 saylı Qeydində müəyyən edilmiş xüsusi məqsədli maliyyə hesabatlılığı çərçivəsinə uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.

### *Şərti Müsbət Rəy üçün Əsaslar*

*İlkin tanınma zamanı əmlak, avadanlıq və qeyri-maddi aktivlərin ədalətli dəyəri*

Cəmiyyət, ümumi nəzarət altında birləşmiş müəssisədən və onun əsasında yaradıldığı ləğv edilmiş müəssisələrdən əldə edilmiş əmlak və qeyri-maddi aktivləri tanımışdır (xüsusi məqsədli maliyyə hesabatlarının 1 saylı Qeydində açıqlandığı kimi) əldə edilən əmlak, avadanlıq və qeyri-maddi aktivləri tələb olunduğu kimi birləşmə tarixində ədalətli dəyərlərində deyil, müvafiq müəssisələrin xüsusi məqsədli maliyyə hesabatlarında balans dəyərlərində tanımışdır. Rəhbərlik ədalətli dəyərləri müəyyən etmək üçün qiymətləndirmə həyata keçirməmişdir və xüsusi məqsədli maliyyə hesabatlılığı çərçivəsində bu təsir hazırkı xüsusi məqsədli maliyyə hesabatlarında hesablanmamışdır.

Nəticə etibarilə biz, əmlak, avadanlıq və qeyri-maddi aktivlərin, o cümlədən əlaqədar köhnəlmə və amortizasiyanın ilkin tanınması və sonrakı ölçülməsi, eləcə də onların ümumilikdə hazırkı xüsusi məqsədli maliyyə hesabatlarına təsiri barədə kifayət qədər müvafiq audit sübutu əldə edə bilməmişik.



Baker Tilly Audit Azerbaijan CJSC trading as Baker Tilly is a member of the global network of Baker Tilly International Ltd., the members of which are separate and independent legal entities.

*Əmlak, avadanlıq və qeyri-maddi aktivlərin dəyərsizləşmə üzrə yoxlanışı*

Cəmiyyətin uçot siyasətinə əsasən, Cəmiyyətin rəhbərliyi hər bir hesabat dövrünün sonunda öz aktivlərinin dəyərsizləşməsi nəticəsində zərərin olub-olmadığını müəyyən etmək üçün həmin əmlak və avadanlıqların balans dəyərlərini nəzərdən keçirir. Fərdi aktivin bərpa edilə bilən məbləğini qiymətləndirmək mümkün olmadıqda, Cəmiyyət aktivin aid olduğu pul vəsaitlərini yaradan vahidin bərpa edilə bilən məbləğini hesablayır. Cəmiyyətin gələcək pul vəsaitlərinin hərəkəti ilə bağlı proqnozlar bu hesabat tarixinə yekunlaşdırılmadığı üçün Cəmiyyətin rəhbərliyi 31 dekabr 2024-cü il tarixinə belə bir təhlili həyata keçirməmişdir və bu səbəbdən, maliyyə hesabatlarına bu qiymətləndirmədən irəli gələ biləcək hər hansı potensial düzəlişlər daxil edilməmişdir.

Bu məsələ nəticəsində 31 dekabr 2024-cü il tarixinə müvafiq olaraq 246,437,428 AZN və 17,928,968 AZN məbləğlərində bəyan edilmiş əmlak və avadanlıqların balans dəyərləri və mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatda, eləcə də kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlarda qeyd olunmuş müvafiq elementlər ilə bağlı düzəlişlərin əhəmiyyətli olub-olmayacağını müəyyən etmək iqtidarında olmamışıq.

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun olaraq aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Xüsusi Məqsədli Maliyyə Hesabatlarının Auditinə görə Auditorların Məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və digər etik öhdəliklərimizi bu tələblərə, eləcə də MBESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

***İzahedici Paraqraf – Mühasibat Uçotunun Əsasları və Xüsusi Məqsədli Maliyyə Hesabatlarının Yayılması və İstifadəsi üzrə Məhdudiyyət***

Hazırkı xüsusi məqsədli maliyyə hesabatları və auditorların rəyi yalnız Cəmiyyətin rəhbərliyi və səhmdarının məlumatlandırılması və istifadəsi üçün nəzərdə tutulmuşdur və hazırkı qeyd olunan tərəflərdən başqa heç kim tərəfindən istifadə edilməməlidir.

***Digər Məsələ***

Cəmiyyətin 31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə xüsusi məqsədli maliyyə hesabatları 30 yanvar 2025-ci il tarixində xüsusi məqsədli maliyyə hesabatları üzrə şərti müsbət rəy təqdim edən başqa auditor tərəfindən yoxlanılmışdır.

31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə xüsusi məqsədli maliyyə hesabatlarının auditinin bir hissəsi kimi biz, həmçinin 6 saylı Qeyddə qeyd olunduğu kimi 31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə xüsusi məqsədli maliyyə hesabatlarına tətbiq olunan düzəlişlərin audit yoxlamasını aparmışıq. Biz, qeyd olunan düzəlişlər istisna olmaqla, 31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə Cəmiyyətin xüsusi məqsədli maliyyə hesabatlarının auditində iştirak etməmişik, nəticə etibarilə, biz qeyd olunan xüsusi məqsədli maliyyə hesabatları üzrə hər hansı rəy və ya əminlik təqdim etmirik.

***Xüsusi Məqsədli Maliyyə Hesabatları üzrə Rəhbərliyin və İdarəetmə Səlahiyyətləri Verilmiş Şəxslərin Məsuliyyəti***

Rəhbərlik xüsusi məqsədli maliyyə hesabatlarının, xüsusi məqsədli maliyyə hesabatlarının 2 saylı Qeydində müəyyən edilmiş xüsusi məqsədli maliyyə hesabatlılığı çərçivəsinə uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, fırıldaqçılıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olmadığı xüsusi məqsədli maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Xüsusi məqsədli maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İdarəetmə səlahiyyətləri verilmiş şəxslər Cəmiyyətin maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

***Xüsusi Məqsədli Maliyyə Hesabatlarının Auditinə görə Auditorların Məsuliyyəti***

Bizim məqsədimiz xüsusi məqsədli maliyyə hesabatlarında bir tam kimi, fırıldaqçılıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimizi özündə əks etdirən auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin bu səviyyədə olan əminlik də əhəmiyyətli təhriflərin mövcud olduğu hallarda, BAS-a uyğun olaraq aparılmış auditin belə təhrifləri həmişə aşkarlayacağına zəmanət vermir. Təhriflər fırıldaqçılıq və ya xətalar nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə hazırlanmış xüsusi məqsədli maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

Audit zamanı biz BAS-ın tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi peşəkar mühakimə tətbiq edir və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Xüsusi məqsədli maliyyə hesabatlarında fırıldaqçılıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olması risklərini müəyyən edərək qiymətləndirir, bu risklərə cavab verən audit prosedurlarını layihələndirərək həyata keçirir və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib olan audit sübutları əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranan əhəmiyyətli təhrifi aşkarlamamaq riski xətalar nəticəsində yaranan əhəmiyyətli təhrifləri aşkarlamamaq riskindən daha yüksəkdir, çünki fırıldaqçılıq, sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər;
- Cəmiyyətin daxili nəzarət sisteminin effektivliyi barədə rəy bildirmək üçün deyil, şəraitə uyğun olan audit prosedurlarının işlənib hazırlanması üçün daxili nəzarət sistemi barədə anlayış əldə edirik;
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məqsədəuyğunluğunu qiymətləndiririk;
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutları əsasında Cəmiyyətin fəaliyyətini fasiləsiz davam etdirmək imkanını ciddi şübhə altına qoya bilən hadisə və ya şərtlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığına dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda xüsusi məqsədli maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməli və ya belə məlumatların açıqlanması kifayət etmədiyi halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Bununla belə, gələcək hadisə və ya şərtlər Cəmiyyətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər;
- Məlumatların açıqlanması da daxil olmaqla, xüsusi məqsədli maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin xüsusi məqsədli maliyyə hesabatlarında ədalətli şəkildə təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit nəticələri, o cümlədən audit apardığımız zaman daxili nəzarət sistemində aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında idarəetmə səlahiyyətləri verilmiş şəxslərə məlumat veririk.

Baker Tilly Azerbaijan

15 sentyabr 2025-ci il
Bakı, Azərbaycan Respublikası

## “AZƏRBAYCAN YERÜSTÜ NƏQLİYYAT AGENTLİYİ” PUBLİK HÜQUQİ ŞƏXSİ

**MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA XÜSUSİ MƏQSƏDLİ HESABAT**
**31 DEKABR 2024-CÜ İL TARİXİNƏ**
*(Əksi qeyd olunmadığı halda, Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il (yenidən bəyan olunmuş/yenidən təsnifləşdirilmiş) |
|---|---|---|---|
| **AKTİVLƏR:** | | | |
| **Uzunmüddətli aktivlər:** | | | |
| Əmlak və avadanlıqlar | 7 | 246,437,428 | 2,658,568 |
| Qeyri-maddi aktivlər | 8 | 17,928,968 | 2,064,124 |
| İstifadə hüququ olan aktivlər | 9 | 557,360 | 876,158 |
| Əmlak və avadanlıq üzrə avans ödənişləri | 10 | 237,930 | - |
| Qeyri-maddi aktivlər üzrə avans ödənişləri | 10 | 1,547,360 | - |
| İnvestisiya qiymətli kağızları | 11 | 426,943 | 426,943 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **267,135,989** | **6,025,793** |
| **Cari aktivlər:** | | | |
| Avans ödənişləri | 12 | 3,138,637 | 38,990 |
| Debitor borcları və digər alınacaq vəsaitlər | 13 | 5,299,617 | 1,507,717 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 14, 28 | 24,323,844 | 25,366,314 |
| Digər aktivlər | 15 | 1,638,403 | 434,787 |
| **Cəmi cari aktivlər** | | **34,400,501** | **27,347,808** |
| **CƏMİ AKTİVLƏR** | | **301,536,490** | **33,373,601** |
| **ÖHDƏLİKLƏR VƏ KAPİTAL:** | | | |
| **ÖHDƏLİKLƏR:** | | | |
| **Uzunmüddətli öhdəliklər:** | | | |
| İcarə öhdəlikləri | 16 | 443,187 | 728,340 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **443,187** | **728,340** |
| **Cari öhdəliklər:** | | | |
| İcarə öhdəlikləri | 16 | 190,361 | 193,018 |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | 17 | 6,957,546 | 2,168,546 |
| Əlaqəli tərəflərə ödəniləcək vəsaitlər | | - | 5,720,433 |
| Digər öhdəliklər | 18 | 1,892,876 | 276,879 |
| **Cəmi cari öhdəliklər** | | **9,040,783** | **8,358,876** |
| **Cəmi öhdəliklər** | | **9,483,970** | **9,087,216** |
| **KAPİTAL:** | | | |
| Nizamnamə kapitalı | 19 | 245,157,852 | 5,642,390 |
| Hökumət investisiyaları | 20 | 65,351,179 | 31,091,207 |
| Yığılmış zərər | | (18,456,511) | (12,447,212) |
| **Cəmi kapital** | | **292,052,520** | **24,286,385** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **301,536,490** | **33,373,601** |

**Rəhbərliyin adından:**

**Anar Rzayev**
**İdarə Heyətinin sədri**

15 sentyabr 2025-ci il
Bakı, Azərbaycan Respublikası

**Ramil Məmmədov**
**Mühasibat uçotu şöbəsinin müdiri/**
**Maliyyə departamentinin direktoru vəzifəsini icra edən**

15 sentyabr 2025-ci il
Bakı, Azərbaycan Respublikası

10-56-cı səhifələrdəki qeydlər hazırkı xüsusi məqsədli maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

# "AZƏRBAYCAN YERÜSTÜ NƏQLİYYAT AGENTLİYİ" PUBLİK HÜQUQİ ŞƏXSİ

## MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİR HAQQINDA XÜSUSİ MƏQSƏDLİ HESABAT
## 31 DEKABR 2024-CÜ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
*(Əksi qeyd olunmadığı halda, Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə | 31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| Gəlir | 21 | 37,670,078 | 7,124,885 |
| Hökumətdən alınmış subsidiyalar | 22 | 39,615,055 | 6,000,000 |
| Köhnəlmə və amortizasiya xərci | 7, 8, 9 | (40,854,092) | (547,212) |
| İşçi heyəti üzrə xərclər | 23, 28 | (23,325,373) | (11,948,166) |
| Parklanma xərcləri | 24 | (18,280,762) | (1,925,206) |
| İnzibati xərclər | 25 | (12,679,963) | (2,701,700) |
| Yolların nişanlanması və təmiri xərcləri | 26 | (8,919,433) | (1,001,025) |
| Taxoqraf xərcləri | | (126,471) | (435,868) |
| İcazə forması xərcləri | | (50,360) | (230,915) |
| **Əməliyyat zərəri** | | **(26,951,321)** | **(5,665,207)** |
| Xarici valyuta mübadiləsi üzrə zərər, xalis | | (10,488) | (5,523) |
| Debitor borcları və digər alınacaq vəsaitlər üzrə ehtimal olunan kredit zərərləri xərci | 13 | (1,382,095) | (573,406) |
| Maliyyə xərcləri | 16 | (94,206) | (98,543) |
| Digər gəlir, xalis | | 533,636 | 198,924 |
| **Mənfəət vergisindən əvvəl zərər** | | **(27,904,474)** | **(6,143,755)** |
| Mənfəət vergisi | 27 | - | - |
| **İl üzrə xalis zərər** | | **(27,904,474)** | **(6,143,755)** |
| **İl üzrə cəmi məcmu zərər** | | **(27,904,474)** | **(6,143,755)** |

**Rəhbərliyin adından:**

**Anar Rzayev**
**İdarə Heyətinin sədri**

15 sentyabr 2025-ci il
Bakı, Azərbaycan Respublikası

**Ramil Məmmədov**
**Mühasibat uçotu şöbəsinin müdiri/**
**Maliyyə departamentinin direktoru vəzifəsini icra edən**

15 sentyabr 2025-ci il
Bakı, Azərbaycan Respublikası

10-56-cı səhifələrdəki qeydlər hazırkı xüsusi məqsədli maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

## "AZƏRBAYCAN YERÜSTÜ NƏQLİYYAT AGENTLİYİ" PUBLİK HÜQUQİ ŞƏXSİ

### KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA XÜSUSİ MƏQSƏDLİ HESABAT
### 31 DEKABR 2024-CÜ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
*(Əksi qeyd olunmadığı halda, Azərbaycan manatı ilə)*

| | Nizamnamə kapitalı | Hökumət investisiyaları | Yığılmış zərər | Cəmi |
|---|---|---|---|---|
| **1 yanvar 2023-cü il** | **5,642,390** | **6,441,207** | **(6,303,457)** | **5,780,140** |
| İl üzrə cəmi məcmu zərər | - | - | (6,143,755) | (6,143,755) |
| Hökumət invesitisiyaları üzrə xalis artım | - | 24,650,000 | - | 24,650,000 |
| **31 dekabr 2023-cü il** | **5,642,390** | **31,091,207** | **(12,447,212)** | **24,286,385** |
| İl üzrə cəmi məcmu zərər | - | - | (27,904,474) | (27,904,474) |
| Hökumət investisiyaları üzrə xalis artım | - | 34,259,972 | - | 34,259,972 |
| Ümumi nəzarət altında olan müəssisənin birləşməsinin təsiri | 239,515,462 | - | 21,895,175 | 261,410,637 |
| **31 dekabr 2024-cü il** | **245,157,852** | **65,351,179** | **(18,456,511)** | **292,052,520** |

**Rəhbərliyin adından:**

**Anar Rzayev**
**İdarə Heyətinin sədri**

15 sentyabr 2025-ci il
Bakı, Azərbaycan Respublikası

**Ramil Məmmədov**
**Mühasibat uçotu şöbəsinin müdiri/**
**Maliyyə departamentinin direktoru vəzifəsini icra edən**

15 sentyabr 2025-ci il
Bakı, Azərbaycan Respublikası

10-56-cı səhifələrdəki qeydlər hazırkı xüsusi məqsədli maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

# "AZƏRBAYCAN YERÜSTÜ NƏQLİYYAT AGENTLİYİ" PUBLİK HÜQUQİ ŞƏXSİ

**PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA XÜSUSİ MƏQSƏDLİ HESABAT**
**31 DEKABR 2024-CÜ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ**
*(Əksi qeyd olunmadığı halda, Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il (yenidən bəyan olunmuş/yenidən təsnifləşdirilmiş) |
|---|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTİ:** | | | |
| İl üzrə xalis zərər | | (27,904,474) | (6,143,755) |
| **Qeyri-nağd maddələr üzrə düzəlişlər:** | | | |
| Köhnəlmə və amortizasiya xərci | 7, 8, 9 | 40,854,092 | 547,212 |
| Xarici valyuta mübadiləsi üzrə zərər, xalis | | 10,488 | 5,523 |
| Debitor borcları və digər alınacaq vəsaitlər üzrə ehtimal olunan kredit zərərləri xərci | 13 | 1,382,095 | 573,406 |
| İstifadə olunmamış məzuniyyət üzrə yığılmış öhdəlikdə xalis dəyişiklik | | 973,200 | - |
| İcarə müqavilələrinin tanınmasının dayandırılması üzrə gəlir | | (7,090) | - |
| **Əməliyyat aktivləri və öhdəliklərində dəyişikliklər:** | | | |
| Avans ödənişləri | | (2,834,120) | 129,858 |
| Debitor borcları və digər alınacaq vəsaitlər | | (1,737,165) | (1,302,984) |
| Digər aktivlər | | (1,203,616) | (300,843) |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | | (3,160,987) | 2,025,629 |
| Əlaqədar tərəflərə ödəniləcək vəsaitlər | | - | 5,720,433 |
| Digər öhdəliklər | | 453,201 | 140,506 |
| **Əməliyyat fəaliyyəti üzrə daxil olan xalis pul vəsaitləri** | | **6,825,624** | **1,394,985** |
| **İNVESTİSİYA FƏALİYYƏTİ:** | | | |
| Əmlak və avadanlıqlar üzrə ödənişlər | | (28,184,831) | (761,838) |
| Qeyri-maddi aktivlər üzrə ödənişlər | | (13,821,957) | (2,035,204) |
| **İnvestisiya fəaliyyətinə yönələn xalis pul vəsaitləri** | | **(42,006,788)** | **(2,797,042)** |
| **MALİYYƏLƏŞDİRMƏ FƏALİYYƏTİ:** | | | |
| İcarə öhdəliklərinin əsas hissəsinin ödənilməsi | 16 | (110,790) | (154,153) |
| Hökumət investisiyaları üzrə daxilolmalar | | 34,259,972 | 24,650,000 |
| **Maliyyələşdirmə fəaliyyəti üzrə daxil olan xalis pul vəsaitləri** | | **34,149,182** | **24,495,847** |
| Xarici valyuta mübadiləsi dəyişikliklərinin pul vəsaitləri və onların ekvivalentlərinə təsiri | | (10,488) | (5,523) |
| Pul vəsaitləri və onların ekvivalentləri üzrə xalis | | (1,042,470) | 23,088,267 |
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, *ilin əvvəlinə* | 14 | 25,366,314 | 2,278,047 |
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, *ilin sonuna* | 14 | **24,323,844** | **25,366,314** |

31 dekabr 2024-cü il tarixində başa çatmış il ərzində Cəmiyyət tərəfindən ödənilmiş faiz 94,206 AZN təşkil etmişdir (31 dekabr 2023-cü il: 98,543 AZN).

***Qeyri-nağd əməliyyatlar***

31 dekabr 2024-cü il tarixində başa çatmış il ərzində əsas qeyri-nağd investisiya əməliyyatlarına ümumi nəzarət altında olan müəssisənin birləşməsinin təsiri olaraq, müvafiq olaraq 251,832,176 AZN və 4,798,275 AZN məbləğində əmlak, avadanlıqlar və qeyri-maddi aktivlərin tanınması daxildir.

31 dekabr 2024-cü il tarixində başa çatmış il ərzində əsas qeyri-nağd maliyyələşdirmə əməliyyatlarına ümumi nəzarət altında olan müəssisənin birləşməsinin təsiri olaraq nizamnamə kapitalında 239,515,462 AZN məbləğində artım daxil olmuşdur.

**Rəhbərliyin adından:**

| | |
|---|---|
| **Anar Rzayev**<br>**İdarə Heyətinin sədri** | **Ramil Məmmədov**<br>**Mühasibat uçotu şöbəsinin müdiri/**<br>**Maliyyə departamentinin direktoru**<br>**vəzifəsini icra edən** |
| 15 sentyabr 2025-ci il<br>Bakı, Azərbaycan Respublikası | 15 sentyabr 2025-ci il<br>Bakı, Azərbaycan Respublikası |

10-56-cı səhifələrdəki qeydlər hazırkı xüsusi məqsədli maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.